AFFA

İnkişaf strategiyası

2021-2025

BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

Mündəricat

Ön söz	4
Vizyonumuz & Missiyamız	6
Dəyərlərimiz	7
Giriş	9
İnkişaf Strategiyası	17
Kütləvi Futbol və Gənclərin İnkişafı	18
Futbol İnfrastrukturu	20
Klub Futbolu və Regionlar	22
Rəqəmsal Ekosistem	24
Davamlılıq və Sosial Məsuliyyət	27
Təhlil və Qiymətləndirmə	28

İnkişaf Strategiyası futbolun bəzi əsas sütunlarını ehtiva edir və bu mülahizələr həyata keçirildikdən sonra əhəmiyyətli dərəcədə faydalı olacaq. Oğlanlar və qızlar üçün kütləvi futbol və təhsil proqramları, məşqçilik təhsili, infrastrukturun inkişafı və klub futboluna sərmayə yatırımına üstünlük verilməsi, şübhəsiz ki, məhsuldar dayanıqlılığa aparacaq, təkmilləşdirilmiş proseslərə malik rəqəmsal ekosistemə müasir idarəetmə yanaşması AFFA komandası daxilində mövcud peşəkarlığı böyük ölçüdə tamamlayacaq. Həmçinin davamlılıq və sosial məsuliyyətin əsas sahələri ilə yanaşı, könüllülüyün AFFA üçün xüsusi əhəmiyyət kəsb edən sahə kimi qaldığını görmək ürəkaçandır.

Bu fəaliyyət - sizin strategiyanız - həmçinin bizim üzvlərimizlə həyata keçirdiyimiz inkişaf təsirinin arıtırılması, qadın futbolunun inkişafı, beynəlxalq rəqabətin artırılması və sonda futbolu bütün dünya üzrə həqiqətən qlobal və cəmiyyətin rifahına çalışan vasitə olması üçün mənim "Vizyon 2020-2023"ə böyük dərəcədə uyğundur. Şübhəsiz ki, Sizin gələcəyə baxışınızın həyata keçirilməsini təsdiq edən bu mühüm sənəd Azərbaycanda futbolun təbliğinə, populyarlaşmasına və daha da inkişafına, onun qarşıdakı illərdə ölkədə tanınmasına və çiçəklənməsinə, gələcək uğurların əldə olunmasına töhfə verəcək.

Gianni Infantino
FİFA-nın prezidenti

UEFA və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) illər ərzində möhkəm əlaqələr qurub. Azərbaycanda futbolun inkişafı və cəmiyyətin sosial rifahına fayda verə biləcək potensialından istifadəsi üçün göstərdikləri davamlı zəhmət və fədakarlıq münasibəti ilə AFFA-nı təbrik etməkdən məmnunuq. AFFA ölkə daxilində futbolun populyarlığının və kütləviliyinin inkişafı və təşviqi istiqamətində əməli addımların həyata keçirilməsində güclü liderlik nümayiş etdirməkdə davam edir. Bakı UEFA AVRO-2020-nin hərarətli və qonaqpərvər ev sahibi kimi parladı və bu xüsusi günlərdə xalqın futbola olan sevgisini aydın görmək olurdu.

UEFA-nın "yaxşı idarəçilik prinsipləri"nin əsas məqsədlərindən biri yalnız bir milli assosiasiyanın və gündəlik futbolun idarə olunması deyil, strateji inkişafın zənginləşdirilməsi və dəyərinin artırılması, həmçinin dayanıqlı gələcəyə baxışı və bunun əldə edilməsi üçün vacib olan məqsədlərin təyin edilməsinə olan ehtiyacdır. UEFA və onun "Grow" komandası bütövlükdə milli assosiasiyanın və Azərbaycanda futbolun inkişafının ilham mənbəyi olan AFFA-nın 2021-2025-ci illər üzrə İnkişaf Strategiyasının hazırlanmasında sıx əməkdaşlıq etməkdən məmnundur.

Aleksander Čeferin
UEFA-nın prezidenti

Əksər sahələrdə olduğu kimi, futbolda da dayanıqlı və hərtərəfli inkişafa nail olmaq üçün düzgün hədəflərin müəyyənləşdirilməsi, məqsədlərə doğru strateji yol xəritəsinin hazırlanması və bütün bu prosesin zamanla uzlaşdırılması vacibdir. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"nın icrası dövründə ölkəmizdə futbolun inkişafı ilə bağlı mühüm işlər görüldü, infrastruktur layihələri icra olundu, kütləviliyin təmin olunması və futbol təhsilinin müasir tələblər səviyyəsinə çatdırılması prosesində irəliyə doğru böyük addımlar atıldı. AFFA və UEFA-nın birgə əməkdaşlıq çərçivəsində ərsəyə gətirdiyi "GROW 2020" proqramı çərçivəsində 2016-2020-ci illər ərzində futbolun ölkədə ən çox izlənilən və ən kütləvi idman növü kimi saxlanılması üçün AFFA-nın aktiv fəaliyyəti davam etdi. Son dörd ildə infrastruktur və təhsil layihələrini həyata keçirməklə yanaşı, klub futbolunun inkişafı və sağlam rəqabət mühitinin təmin edilməsi ilə bağlı ciddi işlər görüldü. Dövlətimizin böyük dəstəyi sayəsində ev sahibliyi etdiyimiz UEFA Avropa Liqasının final oyunu, 2021-ci ildə dörd oyununa ev sahibliyi edəcəyimiz Avropa Çempionatı, sözsüz ki, ölkə futbolu tarixində ən vacib hadisələrdəndir. Hər iki idman tədbiri ölkədə futbolun təbliği ilə yanaşı ölkəmizin beynəlxalq aləmdə idman ölkəsi kimi daha da tanıdılmasında böyük əhəmiyyət kəsb edir. Bütün bu proseslərin məntiqi ardıcıllığı olaraq AFFA-nın hazırladığı "2021-2025-ci illər İnkişaf Strategiyası"nın ölkə futbolunun inkişafına böyük töhfə verəcəyinə inanıram.

Rövnəq Abdullayev
AFFA-nın prezidenti

Vizyonumuz

Futbolu ölkəmizdə bir nömrəli idman növü mövqeyində saxlamaq və əsas sağlam həyat tərzi vasitəsi etmək

Missiyamız

Biz gənc futbolçularının inkişafını dəstəkləməklə yanaşı ölkədə hər kəsin futbolla məşğul ola bilməsi və gündən-günə böyüyən futbol ailəsinin bir parçasına çevrilməsi üçün bərabər imkanlar yaradılmasını və təhlükəsiz mühitin təmin olunmasını davam etdirmək istəyirik

Məsuliyyət

Biz ölkənin ali futbol qurumu olaraq cəmiyyət qarşısında məsuliyyətimizi dərk edirik

Bərabərlik

Biz futbol oyununu cinsindən, yaşından, fiziki imkanlarından, yaşadığı yerdən asılı olmayaraq hər kəs üçün əlçatan etməliyik

Şəffaflıq və ədalət

Futbol meydanında və meydandan kənarda atılan hər addımda şəffaflığın və ədalətin olmasını təmin edirik

İnkişaf

Biz futbol ilə bağlı fəaliyyətimizin hər sahəsində ən müasir idarəetmə metodları tətbiq etməklə daim inkişafa can atırıq

SKOGSTAD

Dövlətimizin və tərəfdaşlarımızın dəstəyi ilə həyata keçirdiyimiz futbol siyasəti nəticəsində futbol ölkədə **ƏN ÇOX İZLƏNƏN İDMAN NÖVÜ** olmaqda davam edir. Bakıda təşkil olunmuş UEFA Avropa Liqasının final oyunu, 2021-ci ildə dörd oyununa ev sahibliyi edəcəyimiz Avropa Çempionatı və ölkə üzrə həyata keçirdiyimiz digər təşəbbüslərin məntiqi nəticəsi olaraq, son dörd ildə ölkədə futbola maraq 28%-dən 39%-ə (kişilər 58%, qadınlar 20%) yüksəlmişdir.[1] Ölkə ərazisində keçirdiyimiz doqquz müxtəlif yaş qrupunda oğlanlar və dörd müxtəlif yaş qrupunda qızlar liqaları, ölkə məktəblərinin 75%-dən çoxunu əhatə edən məktəbli kuboku və onlarla digər kütləvi futbol layihələri sayəsində futbol uşaqlar tərəfindən də ən çox oynanılan idman növüdür. AFFA tərəfindən hər həftə ortalama 250 oyun təşkil edilir. Ölkə üzrə araşdırma göstərir ki, futbol son dörd ildə valideynlərin uşaqları üçün seçdiyi ilk idman növü qalmaqla seçim faizi 5%-dən 10%-ə qədər yüksəlib.

Sön dörd ildə **İNFRASTRUKTUR LAYİHƏLƏRİ**nin həyata keçirilməsi davam edib. Milli komandaların və klubların peşəkar mühitdə inkişafını təmin etmək üçün bir çox futbol meydanlarının süni örtükləri təbii otla əvəz edilib, bir çox yeni təbii ot örtüklü meydanlar salınıb. Bununla yanaşı, futbolun kütləviliyini artırmaq məqsədi ilə yerli icra orqanları ilə tərəfdaşlıq çərçivəsində ölkə üzrə onlarla süni örtüklü meydança salınaraq əhalinin ödənişsiz istifadəsinə verilib.

KLUB FUTBOLUNUN İNKİŞAFI və sağlam rəqabət mühitinin təmin edilməsi ilə bağlı ciddi işlər görülüb. Mərc oyunlarının bütün dünyada geniş vüsət alması ilə paralel əksər ölkələrdə qarşılaşmaların nəticəsinin manipulyasiyasına cəhdlər göstərilir və təəssüf ki, bir çox hallarda bu cəhdlər uğurlu olur. Azərbaycan Premyer Liqası bu baxımdan şəffaflığını qoruyub saxlasa da, Birinci Divizionda müəyyən neqativ hallara rast gəlinib. AFFA-nın İntizam Komitəsi tərəfindən "danışılmış oyunlar"da iştirakı müəyyən olunmuş bir neçə klub, futbolçu, məşqçi və inzibati heyətin üzvlərinə müxtəlif cərimələr və sanksiyalar tətbiq olunub, günahkarların bir çoxunun futbol fəaliyyətinə qadağa qoyulub. Futbol ailəsi dərk edir ki, ən böyük təhdid danışılmış oyunların artmasıdır.

AFFA
XXVIII NÖVBƏTİ KONFRANS
28 YANVAR 2020

Milli futbol iştirakçılarının müxtəlif kateqoriyaları üzrə **TƏHSİL PROQRAMLARI**nı həyata keçirməyə davam etmişik. Son dörd ildə 200 nəfərdən çox futbol məşqçisi UEFA Pro, A, B və AFFA C kateqoriyalı məşqçilik kurslarını müvəffəqiyyətlə tamamlayıb, 341 nəfər məqçi isə AFFA D lisenziyalarına yiyələniblər. Azərbaycan Premyer Liqası, Birinci Divizion və AFFA-nın təşkilatçılığı ilə keçirilən müxtəlif liqaların oyunlarını idarə edən hakimlər üçün mütəmadi kurslar, məşğələlər, seminarlar, təlim-məşq toplanışları təşkil olunur. Hazırlıq proseslərində AFFA-nın Hakimlər Komitəsinin rəhbərliyi ilə yanaşı, UEFA-nın Hakimlər Departamentindən ezam olunan təlimatçılar da iştirak edir, öz təcrübələrini bölüşürlər. Eyni zamanda, beynəlxalq dərəcəli hakimlərimiz müxtəlif ölkələrdə FIFA və UEFA-nın təşkil etdiyi təlimlərdə iştirak edir. Həmçinin onlarla əməkdaşımız UEFA və digər mötəbər qurumlar tərəfindən təşkil edilən futbol idarəetməsi üzrə müxtəlif təhsil proqramlarında iştirak edərək müvəffəqiyyətlə tamamlayıblar.

İDARƏETMƏDƏ MÜASİR YANAŞMA tətbiq edilib və ilk mərhələ olaraq AFFA-nın elektron idarəetmə sistemi yaradılıb. Şəffaflığın qorunması, müxtəlif sahələr üzrə xidmət göstərən şirkətlər üçün ədalətli rəqabət mühitinin yaradılması məqsədilə AFFA-nın həyata keçirdiyi layihələrlə bağlı tenderlər elan olunur. Tenderlərlə bağlı elan və digər zəruri məlumatlar AFFA-nın saytında yerləşdirilir və bütün müraciətlər elektron qaydada qəbul olunur. Bu tenderlərdə iştirak etmək istəyən hər bir şirkət ilk növbədə AFFA-nın şirkətlərin uyğunluğu üzrə (due diligence) yoxlama prosedurunu müsbət cavabla keçməlidir. Şirkətlərin uyğunluğu üzrə yoxlama sistemi etibarlı əməkdaş şirkətlərin təyin edilməsi və uzunmüddətli əməkdaşlıq üçün olduqca vacibdir.

AFFA-nın 2020-ci il yanvarn 28-də keçirilmiş Konfransında **İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** məqsədilə struktur dəyişikliyi təsdiq olundu. Futbol sahəsində həyata keçirilən layihələrin miqyasının artması, müxtəlif istiqamətlər üzrə intensivliyin inkişafı nəzərə alınaraq, İcraiyyə Komitəsinin üzvlərinin sayı 11-dən 13-ə yüksəldildi. AFFA-nın vitse-prezidentləri isə 2-dən 4-ə qədər artırıldı. Onlardan biri icraçı vitse-prezident statusu əldə etdi. İlk dəfə olaraq İcraiyyə Komitəsinə qadın üzv seçildi. Bundan əlavə, AFFA-nın Nizamnaməsinə bir sıra dəyişikliklər olundu.

KÖNÜLLÜLƏRLƏ BAĞLI FƏALİYYƏT hər zaman AFFA-nın xüsusui önəm verdiyi sahə olub və dövlət başçısı tərəfindən 2020-ci ilin "Könüllülər ili" elan edilməsi bizə əlavə motivasiya verdi. AFFA könüllülər bazasında hazırda 8100 nəfər var və bu şəxslər mütəmadi olaraq idman və sosial yönümlü tədbirlərin təşkilində aktiv rol oynayırlar. 2019-cu ildə keçirilmiş Avropa Liqasının final oyununun təşkilində 1452 könüllü iştirak edib, 2020 nəfərin isə Avropa Çempionatı oyunlarına cəlb olunması nəzərdə tutulub

2012-ci ildən başlayaraq Azərbaycanda irimiqyaslı futbol turnirlərinin təşkil olunması istiqamətində ilk addımlar atıldı. Məhz həmin il FIFA U-17 qızlararası dünya çempionatının final mərhələsi ölkəmizdə keçirildi. FIFA-nın məsul şəxsləri həmin turniri "təşkilati baxımdan tarixdəki ən yaxşı dünya çempionatlarından biri" kimi səciyyələndirmişdilər. Bundan 4 il sonra ölkəmiz qitəmiqyaslı turnirin ev sahibi oldu. UEFA U-17 Avropa çempionatının oyunları Bakı şəhərindəki 4 müxtəlif stadionda təşkil olundu. 2019-cu ildə Bakı şəhəri UEFA-nın ikinci ən nüfuzlu klub turnirinin həlledici oyununa evsahibliyi etdi. İngiltərənin "Çelsi" və "Arsenal" klubları UEFA Avropa Liqasının final qarşılaşmasına Bakı Olimpiya Stadionunda çıxdılar. 2020-ci il iyunun 11-də start götürməsi planlaşdırılsa da, COVİD-19 pandemiyası ilə əlaqədar 1 il müddətinə təxirə salınmış AVRO-2020-nin 4 oyunu da məhz bu möhtəşəm arenada keçiriləcək. Təbii ki, bu tədbirlərin təşkili ölkəmizdə futbolun təbliği, populyarlığının artması ilə yanaşı, Azərbaycanın və Bakı şəhərinin beynəlxalq aləmdə daha da tanınması, turizmin inkişafı, iqtisadiyyatımıza müsbət töhfələr baxımından böyük əhəmiyyət kəsb edir.

Dövlətimizin böyük dəstəyi sayəsində irimiqyaslı beynəlxalq tədbirlərin gələcəkdə də uğurla keçirilməsi istiqamətində səylərimizi davam etdirəcəyik.

UEFA
EURO2020

Dünyanın, demək olar ki, bütün ölkələrini əhatə edən COVID-19 pandemiyası bir çox fəaliyyət sahələrinə öz təsirini göstərdi və futbol da bu baxımdan istisna olmadı. İstər ölkədaxili, istərsə də beynəlxalq turnirlərin təşkili və keçirilməsi baxımından müəyyən çətinliklər ortaya çıxdı. Ötən dövr ərzində AFFA qısa müddətdə COVİD-19 pandemiyasının ortaya çıxardığı reallıqlara adaptasiya olunmağı bacardı. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan Premyer Liqası və Birinci Divizionun yeni mövsümünə start verildi və turnirlər təqvim üzrə keçirilir. Eyni zamanda, Azərbaycan A milli komandasının UEFA Millətlər Liqası, 21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin isə Avropa çempionatının seçmə mərhələsindəki bütün oyunları keçirildi. Hər iki komandanın heyətində koronavirus infeksiyasına yoluxma halları qeydə alınmasına baxmayaraq, oyunların keçirilməsini əngəlləyə bilmədi.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi karantin qərarlarının tələblərinə uyğun olaraq, AFFA əməkdaşlarının məsafədən çalışması təmin edildi və gündəlik fəaliyyət planına uyğun olaraq müvafiq işlər həyata keçirildi.

AFFA-nın İcraiyyə Komitəsinin onlayn rejimdə bir neçə iclası təşkil olundu. Pandemiya ilə əlaqədar ortaya çıxan çətinliklər və bir neçə klubun müvafiq müraciətləri nəzərə alınaraq, AFFA tərəfindən bir neçə Premyer Liqa klubuna maliyyə yardımının göstərilməsi barədə İcraiyyə Komitəsi müvafiq qərar qəbul etdi.

İnkişaf strategiyası
2021-2025

Yeni strategiya 2021-2025-ci illər olmaqla 5 futbol mövsümünü əhatə edəcək və AFFA-nın bu illərdə fəaliyyətinə istiqamət verəcək. İnanırıq ki, bu strategiya müəyyən etdiyimiz hədəflərə çatmağa kömək etməklə Azərbaycan futbolunun bir parçası olan hər kəsi birləşdirəcək.

Yeni strategiyanın dörd əsas istiqaməti olacaq:

1. **Kütləvi futbol və gənclərin inkişafı**
2. **Futbol infrastrukturu**
3. **Klub futbolu və regionlar**
4. **Rəqəmsal ekosistem**

Biz ölkə üzrə cinsindən, yaşından, milliyyətindən, irqidən asılı olmayaraq hər kəs üçün futbol oynamaq üçün bərabər şərait yaratmaq istəyirik. Qeyd edildiyi kimi, müxtəlif yaş qruplarında təşkil etdiyimiz yarışlar və kütləvi futbol layihələrinin nəticəsində ölkə üzrə futbol oynayan uşaqların sayı 12%-ə yüksəlib. [1] Lakin son dövrlərdə 56% yetkin insan və 58% uşaq il ərzində heç bir idmanla məşğul olmayıb. Ölkəmizin sağlam insanlarının sayını artırmaq məqsədi ilə biz daha çox insanı, xüsusilə də uşaqları futbol oynamağa həvəsləndirmək, bununla, dövlətimizə sağlam insanların sayını artırmaqda kömək etmək istəyirik. Bunun üçün təyin etdiyimiz beş hədəf kütləsi üzrə (3-5 yaş, 6-9 yaş, 10-18 yaş, tələbə, həvəskar) fəaliyyətimizi daha da artıracağıq. Həmçinin gənc futbolçuların peşəkar inkişafını dəstəkləmək üçün bir sıra layihələr həyata keçirəcəyik. Bütün bu layihələrin həyata keçirilməsi üçün təhsilli məşqçilərə ehtiyac var. UEFA Pro, A, B, və AFFA C kateqoriyalı məqşçilik kurslarının keyfiyyətinin daha da yüksəldilməsinə ciddi nəzarət edəcəyik və AFFA D lisenziyalı məqşçilərlə hər il təkrar kurslar təşkil edəcəyik.

Sadalananlarla yanaşı, 2025-ci ilə qədər qarşımıza aşağıdakı məqsədləri qoyuruq:

- Kütləviliyi qorumaq məqsədi ilə aktiv tələbə və həvəskar futbolçuların sayını iki, məktəbəqədər yaşda futbol oynayanların sayını dörd dəfə artırmaq;
- "Məktəblərdə futbol dərsi" layihəsi tətbiq edilən məktəblərin sayını 85-ə çatdırmaq;
- 12-13, 14-15, 16-17, 18-19 yaş kateqoriyalarının hər biri üçün ayrılıqda yeni təlim proqramını tamamlamaq və tətbiq etmək;
- U-12, U-13, U-14 və U-15 yaşlarda "Elit Məşq" layihəsinin iştirakçıları arasında seleksiyalar keçirmək və hər yaş qrupu üçün ildə iki dəfə təlim-məşq toplanışları təşkil etmək;
- Bölgələrdə "Elit məşq" layihəsinin iştirakçılarından formalaşmış üç komandanın U-15 və digər yaş qrupları üzrə liqalarda iştirakı;
- AFFA D lisenziyasına malik olan məqşçilərin sayını 700-ə çatdırmaq;
- Dövlət və müxtəlif fondlarla yaxından əməkdaşlıq etməklə işğaldan azad olunmuş rayonlarda uşaq və gənclər futbolunun inkişafı ilə bağlı müvafiq işləri həyata keçirmək

Kütləvi futbol və gənclərin inkişafı

No	HƏDƏF	MƏQSƏD VƏ LAYİHƏLƏR	ƏSAS PERFORMANS GÖSTƏRİCİLƏRİ	SON TARİX
1	Aktiv futbolla məşğul olan tələbələrin sayını iki dəfə artırmaq	Hazırda sayı 420 olan aktiv futbolla məşğul olan tələbələrin sayını hazırkı layihələrin davamiyyətini qorumaq və hər il 2 yeni əlavə universitetdə turnir təşkil etməklə 2025-ci ilin sonunadək iki dəfə artırmaq	2022-ci ildən etibarən hər il iki yeni universitetdə yarışların təşkili və yarışların davamlılığının qorunması	dekabr 2025
2	Həvəskar futbolçuların sayını iki dəfədən çox artırmaq	Hazırda sayı 7900 olan (18 yaşdan yuxarı həvəskar futbolçular 4000 və məktəblərdə futbol dərsi layihəsində iştirak edən həvəskar iştirakçılar 3900 nəfər) həvəskar futbolçuların sayını 2022-ci ildən etibarən təşkil olunacaq həvəskar yarışlar və "Məktəblərdə futbol dərsi" layihəsi vasitəsilə 2025-ci ilin sonunadək iki dəfədən çox artırmaq	2022-ci ildən etibarən iştirakçıları 18 yaşdan yuxarı həvəskarlar olan turnir və liqaların davamiyyətini qorumaqla hər il 6 yeni turnir/liqa təşkil etmək və "Məktəblərdə futbol dərsi" layihəsinə hər il 10 yeni məktəb cəlb etməklə 2025-ci ildə məktəblərin sayını 85-ə çatdırmaq	dekabr 2025
3	Məktəbəqədər yaşda futbol oynayanların sayını dörd dəfə artırmaq	Hazırda sayı 300 olan məktəbəqədər yaşda aktiv futbolla məşğul olan uşaqların sayını hər il "Bağçalarda futbol" layihəsinə yeni uşaq bağçalarının cəlb olunması ilə 2025-ci ilin sonunadək iki dəfədən çox artırmaq	2022-ci ildən etibarən hər il "Bağçalarda futbol" layihəsinə mövcud uşaq bağçalarında davamiyyətini qorumaqla 4 yeni bağça cəlb etmək 2025-ci ilin sonuna qədər bağçaların sayını 20, uşaqların sayını minimum 1200-ə çatdırmaq	dekabr 2025
4	AFFA D lisenziyasına malik olan məşqçilərin sayını 700-ə çatdırmaq və hər il təkrar kurslar keçirmək	Hazırda sayı 340 nəfər olan AFFA D lisenziyasına malik olan məşqçilərin sayını 2025-ci ilin sonunadək 700-ə çatdırmaq	2022-ci ildən etibarən Bakı və regionlarda təşkil ediləcək D lisenziya məşqçilik kursları vasitəsilə hər il yeni 90 məqşçiyə lisenziya verməklə ümumi sayı 700-ə çatdırmaq	dekabr 2025
5	12-13, 14-15, 16-17, 18-19 yaş kateqoriyalarının hər biri üçün ayrılıqda yeni təlim proqramını tamamlamaq və tətbiq etmək	Ölkənin ən istedadlı gənc futbolçularını eyni proqram və metodologiya üzrə inkişaf etdirmək	Hər il müvafiq yaş qrupları üçün hazırlanmış proqram və metodologiyanı tətbiq etmək	dekabr 2025
6	U-12, U-13, U-14 və U-15 yaşlarda "Elit Məşq" layihəsinin iştirakçıları arasında seleksiyalar keçirmək və hər yaş qrupu üçün ildə iki dəfə təlim-məşq toplanışları təşkil etmək	Ölkə üzrə davamlı seleksiyalar etməklə ən istedadlı 12, 13, 14 və 15 yaşadək qruplar üzrə gənc futbolçuları seçmək və il ərzində hər yaş qrupu üzrə təlim-məşq toplanışları etmək	Hər il müvafiq yaş qrupları üçün seleksiyaları keçimək və iki dəfə təlim-məşq toplanışı təşkil etmək	dekabr 2025
7	Elit-məşq layihəsinin iştirakçılarından formalaşmış komandaların AFFA tərəfindən təşkil edilən liqalarda iştirakı	Bölgələrdə "Elit-məşq" layihəsinin iştirakçılarından formalaşmış iki komandanın AFFA tərəfindən təşkil edilən U-15 və U-16 liqalarında iştirakını və müvafiq komandaların AFFA Elit məşqçiləri tərəfindən AFFA-nın aşağı yaş qrupları üçün verilən proqramı üzrə çalışmasını təmin etmək.	2021-2022-ci ildən etibarən "Elit məşq" layihəsinin iştirakçılarından formalaşmış şimal və cənub bölgəsindən iki komandanın AFFA tərəfindən təşkil edilən U-15 liqasında iştirakını təmin etmək; 2022-2023-cü ildən etibarən şimal və cənub bölgəsindən iki komandanın U-15 və U-16 liqasında iştirakını təmin etmək; 2022-2023-cü ildən etibarən Bakıdan iki komandanın AFFA tərəfindən təşkil edilən U-15 və U-16 liqalarında iştirakını təmin etmək	dekabr 2023
8	Dövlət və müxtəlif fondlarla yaxından əməkdaşlıq etməklə işğaldan azad olunmuş rayonlarda uşaq və gənclər futbolunun inkişafı ilə bağlı müvafiq işləri həyata keçirmək	Müvafiq fəaliyyət planı və performans göstəriciləri dövlətin işğaldan azad olunmuş rayonlarda infrastrukturun bərpası və əhalinin köçürülməsi planına müvafiq qaydada tətbiq olunacaq		

Biz futbol oynamaq üçün təhlükəsiz, təmiz və əlçatan imkanlar yaratmaq istəyirik. Bu istiqamətdə yerli və beynəlxalq qurumlarla tərəfdaşlığımız çərçivəsində layihələrin həyata keçirilməsinə davam edəcəyik.

Bunun üçün biz növbəti beş il ərzində qarşımıza aşağıdakı məqsədləri qoyuruq:

- Regionlarda üç futbol stadionunun rekonstruksiya edilməsi;
- İki yeni təbii ot örtüklü futbol meydanının inşa edilməsi;
- 50 ədəd yeni süni örtüklü meydançanın əhalinin istifadəsinə verilməsi;
- 40 kənd/qəsəbə meydanının bərpa edilib, sakinlərin istifadəsinə verilməsi;
- Dövlət və müxtəlif fondlarla yaxından əməkdaşlıq etməklə və işğaldan azad olunmuş rayonlarda futbol infrastrukturunun bərpa olunması və yenidən qurulması ilə bağlı müvafiq işləri həyata keçirmək

No	HƏDƏF	MƏQSƏD VƏ LAYİHƏLƏR	ƏSAS PERFORMANS GÖSTƏRİCİLƏRİ	SON TARİX
1	Regionlarda üç futbol stadionunun rekonstruksiyası	Xüsusilə regionlarda peşəkar futbolun inkişafı məqsədilə hazırkı stadionların rekonstruksiyası və yeni futbol meydanlarının inşası	2022-ci ilin sonuna qədər bir, 2023-cü ilin sonuna qədər əlavə bir və 2025-ci ilin sonuna qədər daha bir futbol stadionunun rekonstruksiya edilməsi	dekabr 2025
2	İki yeni təbii ot örtüklü futbol meydanının inşa edilməsi		2023-cü ilin sonuna qədər bir və 2025-ci ilin sonuna qədər daha bir futbol meydanının inşa edilməsi	dekabr 2025
3	50 ədəd yeni süni örtüklü meydançanın əhalinin istifadəsinə verilməsi	Futbol oynamaq üçün əlavə imkanların yaradılması və kütləviliyin təmin olunması üçün yerli icra orqanları ilə əməkdaşlıq çərçivəsində süni örtüklü meydançaların salınaraq sakinlərin istifadəsinə verilməsi	2021-ci ildə 6, hər növbəti ildə 11 ədəd olmaqla, cəmi 50 süni örtüklü meydançanın inşası	dekabr 2025
4	40 kənd/qəsəbə meydanının bərpa edilərək sakinlərin istifadəsinə verilməsi	Regionlarda futbol oynamaq üçün şəraitin bərpa olunması və kütləviliyin təmin olunması məqsədilə yerli icra orqanları ilə əməkdaşlıq çərçivəsində istafadəyə yarasız hala düşmüş futbol meydançalarının təyin edilərək bərpa olunması və yerli əhaliyə təhvili	2021-ci ildə 4, hər növbəti ildə 9 ədəd olmaqla, cəmi 40 meydanın bərpası; Hər meydanın təhvili ilə bağlı kütləvi futbol festivalının təşkili	dekabr 2025
5	Dövlət və müxtəlif fondlarla yaxın-dan əməkdaşlıq etməklə işğaldan azad olunmuş rayonlarda futbol infrastrukturunun bərpa olunması və yenidən qurulması ilə bağlı müvafiq işləri həyata keçirmək	Müvafiq fəaliyyət planı və performans göstəriciləri dövlətin işğaldan azad olunmuş rayonlarda infrastrukturun bərpası və əhalinin köçürülməsi planına müvafiq qaydada tətbiq olunacaq		

Futbola artan ümumi maraq fonunda Azərbaycan Premyer Liqası və ölkə kubokuna da maraq artmışdır. Lakin həm liqa, həm də kubok oyunlarına gələn azarkeş sayı nəzərəçarpacaq dərəcədə azalmışdır. Premyer liqa klublarının əksəriyyətinin Bakını təmsil etməsi də azarkeş sayına təsir edən amillərdəndir. Zəif cəhətlər olaraq klubların müstəqil maliyyə mənbələrinin olmaması və regionlarda icra hakimiyyətlərinin futbola maraq göstərməməsini də qeyd etmək olar.
Biz klublara ictimaiyyətlə əlaqələr və marketinq işinin düzgün qurulması üçün dəstək göstərəcəyik. Bununla yanaşı, regionlarda futbolun inkişafı üçün yaratdığımız Region Liqasında hər il ölkə şəhər və rayonlarının 40%-dən çoxu təmsil olunur. Bu sahədə də fəaliyyətimizi davam etdirəcəyik.

Sadalananlarla yanaşı, növbəti beş ildə qarşımıza aşağıdakı məqsədləri qoymuşuq:

- Premyer Liqada iştirak edən klubların sayını minimum 10-a çatdırmaq;
- Premyer liqa klublarında rəqabət balansının qorunması üçün maliyyə dəstəyinin göstərilməsi;
- Premyer Liqa klublarına dəstək məqsədi ilə ictimaiyyətlə əlaqələr və marketinq sahələri üzrə dəstək proqramları hazırlamaq, qrantlar təsis etmək;
- Regionlarda gənc futbolçuların aşkarlanıb inkişaf etdirilməsi məqsədilə iki futbol akademiyasının inşa olunaraq istifadəyə verilməsi;
- Region Liqasında ölkə üzrə bütün şəhər və rayonların təmsil olunma faizini minimum 40% həddində qorumaq

No	HƏDƏF	MƏQSƏD VƏ LAYİHƏLƏR	ƏSAS PERFORMANS GÖSTƏRİCİLƏRİ	SON TARİX
1	Premyer Liqada iştirak edən klubların sayını minimum 10-a çatdırmaq	Regionlardan ən azı iki kluba dayanıqlı maliyyə mənbəyi tapmaqla Premyer Liqada iştirakına dəstək olmaq	2021-2022-ci il mövsümündən başlayaraq Birinci Divizionda çıxış edən ən azı 2 kluba 2022-2023-cü mövsümündən etibarən sponsorların tapılması məqsədilə AFFA tərəfindən çalışmalara başlamaq (İcra hakimiyyətləri ilə tərəfdaşlıqla regionlarda potensial sponsorlarla danışıqlara başlamaq, müxtəlif təbliğat vasitələrindən istifadə etmək); Strategiyanın fəaliyyəti müddətində PL-də klub sayını 10-a çatdırmaq və sayın azalmağının qarşısını almaq	dekabr 2025
2	Premyer Liqa klublarına dəstək məqsədi ilə ictimaiyyətlə əlaqələr və marketinq sahələri üzrə dəstək proqramları hazırlamaq, qrantlar təsis etmək	Müəyyən edilmiş 8 istiqamət və proqramın faəliyyəti zamanı zərurət yaranarsa, əlavə istiqamətlər üzrə UEFA, FİFA, Milli Assosiasiyalar, beynəlxalq klublar, dövlət və özəl qurumların dəstəyinin cəlb olunması ilə klublara dəstək proqramı	2021-ci il II rübün sonunadək mövcud vəziyyətin təhlili və proqramla bağlı gözləntiləri başa düşmək üçün klublar arasında sorğunun keçirilməsi; 2021-ci III rübünün sonunadək proqramın qısa və uzun müddətli planını təqdim etmək; Müəyyən edilmiş prioritetlər əsasında il ərzində ən azı iki istiqamət üzrə dəstəyin həyata keçirilməsi; İllik hesabatların təqdim edilməsi	dekabr 2025
3	Regionlarda iki futbol akademiyasının inşa olunaraq istifadəyə verilməsi	Regionlarda gənc futbolçuların aşkarlanıb inkişaf etdirilməsi məqsədilə futbol akademiyalarının inşa olunaraq istifadəyə verilməsi	2021-ci ildə birinci, 2024-cü ilin sonunadək ikinci akademiyanın inşa edilməsi; Müvafiq illərin sonuna qədər akademiyaların seleksiya və təhsil proqramının hazırlanması	dekabr 2024
4	Region Liqasında ölkə üzrə bütün şəhər və rayonların təmsil olunma faizini minimum 40% həddində qorumaq	Xüsusilə regionlarda böyük futbolun davamlılığının qorunması məqsədilə Region Liqasında paytaxtdan kənar şəhər və rayonların iştirak faizinin qorunması	Hər mövsüm liqada ölkə üzrə bütün şəhər və rayonların təmsil olunma faizini minimum 40% həddində qorumaq	dekabr 2025

Biz dəyişən tələblərə çevik cavab verə bilən, şəffaf və əlçatan rəqəmsal futbol ekosistemi qurmaq istəyirik. Müasir dünyanın dəyişən tələblərinə qarşı çevik reaksiya göstərə bilmək ehtiyacı rəqəmsal transformasiyanı qaçılmaz edir. 2020-ci ilin əvvəllərindən üzləşdiyimiz Covid-19 pandemiyası bu prosesi bütün sahələr, həmçinin futbol üzrə daha da sürətləndirib. AFFA öz növbəsində ən müasir alət və platformalardan istifadə edərək müxtəlif hədəf qruplarının gözləntilərini daim təhlil edərək sosial media platformalarında yaradıcı məzmun təqdim edir və ictimaiyyətlə kommunikasiyanı aktiv saxlayır. Bununla yanaşı, xüsusilə gənclərin maraqlarını nəzərə alaraq, e-futbol oyularında da aktivlik göstəriririk. Ötən il yaradılmış e-Milli komanda, bu il başladılmış e-Milli liqadan başqa bu yöndə fəaliyyətimiz daha da artacaq.

Sadalananlardan əlavə, növbəti beş ildə qarşımıza aşağıdakı məqsədləri qoymuşuq:

- Ölkə üzrə interaktiv futbol xəritəsinin yaradılması;
- Media yayımı olmayan uşaq və gənclər liqalarını və kütləvi futbol layihələrini əhatə edəcək OTT platformanın yaradılması;
- Klubların lisenziyalaşdırmasının onlayn platformasını yaratmaq;
- Onlayn təhsil proqramları hazırlamaq (Futbol dərsləri, fitnes təmrinləri, məşqçilik, hakimlik kursları);
- İdarəetmə prosesinin rəqəmsallaşdırılmasını davam etdirmək

No	HƏDƏF	MƏQSƏD VƏ LAYİHƏLƏR	ƏSAS PERFORMANS GÖSTƏRİCİLƏRİ	SON TARİX
1	Ölkə üzrə interaktiv futbol xəritəsinin yaradılması	Bütün ölkə üzrə futbol klubları, məktəb və dərnəklərdə futbol oynamağa başlamaq istəyən şəxslər üçün futbola başlamaq imkanlarını əlçatan etmək üçün xüsusi platforma üzərində ölkənin interaktiv futbol xəritəsinin hazırlanması	2021-ci ilin sonunadək xəritəyə qoşulmaq üçün kriteriyaların hazırlanması və məlumatların toplanması; 2022-ci ilin sonunadək test versiyanın hazırlanması; 2023-cü il II rübün sonu yekun versiyanın təqdim olunması	iyul 2023
2	OTT platformanın yaradılması	Media yayımı olmayan uşaq və gənclər liqalarını və kütləvi futbol layihələrini əhatə edəcək AFFA-nın yeni OTT platforması layihəsi	2021-ci ilin sonunadək potensial təchizatçıların araşdırılması; 2022-ci il II rübün sonunadək platformanın texniki tapşırıqlarını müəyyən etmək; 2023-cü ilin II rübünün əvvəli üçün platformanın test yayımını həyata keçirmək; 2023-2024 cü illər mövsümü üçün yekun versiyanı təqdim etmək	iyul 2024
3	Klubların lisenziyalaşdırmasının onlayn platformasını yaratmaq	UEFA və Avropa Milli Assosiasiyaları ilə təcrübə mübadiləsi və informasiya texnologiyaları bazarında olan təklifləri təhlil etməklə mövcud tələblərə cavab verən vahid elektron lisenziyalaşdırma sisteminin yaradılması	2021-ci ilin sonunadək müvafiq hədəf kütləsi üzrə ölkədaxili araşdırma; 2022-ci ilin sonunadək sisteminin testini həyata keçirmək; 2023/24 mövsümü üçün premyer liqa klublarının; 2024/25 mövsümündən bütün lisenziyalaşdırma prosedurunun sistem üzərindən aparılması	iyul 2024
4	Onlayn təhsil proqramları hazırlamaq (Futbol dərsləri, fitnes təmrinləri, məşqçilik, hakimlik kursları)	Müxtəlif hədəf qrupları üçün məsafədən təlimləri əlçatan etmək üçün qeyd edilən dörd istiqamət üzrə müvafiq şöbə/departament tərəfindən hazırlanmış proqram əsasında videodərslərin hazırlanması	2021-ci ilin sonunadək ev və açıq hava şəraitində fitnes təmrinlərini yekunlaşdırmaq; 2022-ci ilin II rübünün sonunadək futbol dərslərini; 2023-cü ilin sonunadək məşqçilik və hakimlik kurslarını yekunlaşdırmaq	iyul 2023
5	İdarəetmə prosesinin rəqəmsallaşdırılmasını davam etdirmək	Futbol idarəetməsinin müxtəlif sahələrində müasir rəqəmsal idarəetmə üsullarının tətbiqini davam etdirmək	2022-ci ilin II rübünün sonunadək İR elektron idarəedilməsi sisteminin tətbiqi; 2022-si ilin sonunadək referi onlayn idarəetmə sisteminin təkmilləşdirilməsi; 2023-cü ilin sonunadək AFFAdaxili tapşırıqların yerinə yetirilməsinin idarəedilməsi və monitorinqi məqsədilə "task manager" onlayn sisteminin tətbiqi; Mütəmadi olaraq müxtəlif sahələr üzrə idarəetməni effektiv edən sistemlərin nəzərədən keçirilməsi və tətbiqi	dekabr 2023

BAKI OLİMPİYA

Davamlılıq və sosial məsuliyyət

Davamlılıq və sosial məsuliyyət futbolda artıq bir imkan deyil, vacib şərtlərdən birinə çevrilib. Xüsusilə, post-pandemiya dövründə biz qurumumuzun cəmiyyət qarşısında rolunu və məsuliyyətini dərk edirik. Bunun üçün ayrı-ayrı KSM təşəbbüsləri formatından davamlılıq prinsiplərinin daha təməl və sistematik inteqrasiya formatına keçmək istəyirik.

AFFA-nın Futbol Sosial Məsuliyyəti strategiyası (2021-2025) məhz bu prinsiplərə əsaslanaraq hazırlanıb və AFFA-nın meydanda və meydandankənar bütün fəaliyyətində öz əksini tapacaq. Biz üzvlərimiz və tərəfdaşlarımızla birgə prioritetləri müəyyən etmişik və müvafiq hədəflər və fəaliyyət planı hazırlanıb.

Qarşıya qoyulan məqsədlərə vaxtında nail olmaq və prosesin gedişatını daha effektiv izləyə bilmək üçün hər bir sahə üzrə cavabdehlər və əsas fəaliyyət göstəriciləri müəyyən ediləcək. Rüblük sorğuların doldurulması ilə yanaşı, ilk dəfə 1 dekabr 2021-ci il tarixində olmaqla hər 6 aydan bir daxili hesabat veriləcək. Hər ilin sonunda əsas fəaliyyət göstəriciləri ilə nəticələr qənaətbəxş olmasa, məqsədlər yenidən nəzərdən keçirilərək yanlışlıqlar aradan qaldırılacaq və ya yeni tətbiq planı işlənəcək.

Strategiyanın koordinatoru

Prioritetlər üzrə cavabdehlər

Kütləvi futbol və gənclərin inkişafı
- Texniki direktor
- Kütləvi Futbol departamenti
- Gənc yığma komandaların koordinatoru

Futbol infrastrukturu
- Baş katibin müavini
- İnfrastruktur departamenti
- Kütləvi Futbol departamenti

Klub futbolu və regionlar
- Klublar komitəsinin koordinatoru
- Marketinq departamenti
- İnfrastruktur departamenti
- Region liqasının koordinatoru

Rəqəmsal ekosistem
- Marketinq departamenti
- Mətbuat və İctimaiyyətlə Əlaqələr şöbəsi
- İnformasiya Texnologiyaları şöbəsi
- Lisenziyalaşdırma qrupu

Digər departament və şöbələr

AFFA İcraiyyə komitəsi

Rövnəq Abdullayev
AFFA-nın prezidenti

Elxan Məmmədov
İcraçı vitse-prezident

Rauf Əliyev
Vitse-prezident

Elşad Nəsirov
Vitse-prezident

Vaqif Sadıqov
Vitse-prezident

Kazbek Tuayev
İK üzvü

İsgəndər Cavadov
İK üzvü

Mahir Məmmədov
İK üzvü

Firudin Qurbanov
İK üzvü

Elmar Məmmədyarov
İK üzvü

Zaur Axundov
İK üzvü

Fərid Mansurov
İK üzvü

Könül Mehdiyeva
İK üzvü

14
21

18
8
2
1

AFFA

BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!